*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 iyun 2016-cı il № 43 (2058) Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycanın yanındadır

***Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələr təkcə strateji xarakter daşımır, həmçinin iki xalq arasında qardaşlıq münasibətlərinə əsaslanır. Qardaş ölkənin yeni Baş naziri təyin edilmiş Binəli Yıldırımın ilk xarici rəsmi səfərlərindən birini Bakıya etməsi bunu bir daha sübut edir. Azərbaycan Prezidenti İlham Əliyevin iyunun 3-də türkiyəli rəsmi qonaqla təkbətək görüşündə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olundu. Yüksək vəzifəyə təyin olunması münasibətilə Binəli Yıldırımı təbrik edən dövlətimizin başçısı dedi:***



- Biz indi Sizinlə təkbətək görüşümüzdə ikitərəfli məsələlərin həlli ilə bağlı fikir mübadiləsi apardıq. Bir daha görürük ki, bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Bizim istəyimiz, məqsədimiz Türkiyə-Azərbaycan birliyini daha da güclü etmək və möhkəmləndirməkdir. Biz həm siyasi, iqtisadi, nəqliyyat sahələrində və həm də bütün başqa sahələrdə uğurlu əməkdaşlıq edirik. Bu gün Türkiyə və Azərbaycan əlaqələri ən yüksək zirvədədir.

Baş nazir Binəli Yıldırım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan və Türkiyə arasında enerji layihələri, o cümlədən "Cənub Qaz Dəhlizi", TAP, TANAP layihələrinin həyata keçirilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, regional əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım mətbuata birgə bəyanatlarla çıxış etdilər.

Türkiyə Cümhuriyyətinin yeni hökumətinin Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı üçün çalışacağına əminliyini vurğulayan Prezident İlham Əliyev bəyan etdi ki, Türkiyə-Azərbaycan əlaqələri inkişaf edir, yüksək səviyyədədir və dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapmaq mümkün deyil.

Türkiyədə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşü çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsi ilə bağlı önəmli qərar qəbul edilməsində və Kontakt Qrupunun yaradılmasında Türkiyənin böyük rolunu məmnunluqla qeyd edən dövlət başçısı bir daha söylədi ki, Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycanın yanındadır və biz bu dəstəyə görə minnətdarıq.

Ölkə rəhbəri Dağlıq Qarabağ münaqişəsinin həllinə toxunaraq media nümayəndələrinə dedi:

- Bilirsiniz ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi uzun illərdir ki, işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüşdür, bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır, torpaqlarımızın təxminən 20 faizi 20 ildən çoxdur ki, işğal altındadır. Baxmayaraq ki, beynəlxalq təşkilatlar, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatı müvafiq qərar və qətnamələr qəbul etmişlər, ancaq məsələ öz həllini tapmır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib və orada göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. O qətnamələrin qəbul olunmasından 20 ildən çox vaxt keçir. Ancaq bu qətnamələr kağız üzərində qalıb. Nəyə görə?! Çünki ikili standartlar var, ayrı-seçkilik göstərilir. Bəzi hallarda Birləşmiş Millətlər Təşkilatının qətnamələri bir gün ərzində icra edilir, amma bizə gəldikdə bu, 20 ildən çoxdur ki, icra edilmir və işğalçı dövlətə qarşı heç bir sanksiya tətbiq edilmir. Bu, böyük ədalətsizlikdir.

Azərbaycan öz prinsipial mövqeyini gücləndirir, siyasi, iqtisadi, hərbi üstünlük əldə edib və aprel döyüşləri bunu bir daha göstərdi. Ermənistanın hərbi təxribatı cavabsız qalmayıb. Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirib. Əks-hücum əməliyyatı nəticəsində 20 kvadrat kilometrdən çox ərazi işğalçılardan təmizləndi və bundan bir neçə dəfə böyük ərazi də Azərbaycan Ordusunun nəzarətinə keçdi.

Məsələnin sülh, danışıqlar yolu ilə həll edilməsinə ölkəmizin sadiq olduğunu, status-kvonun dəyişdirilməsinin zəruriliyinə diqqəti çəkən Azərbaycan Prezidentinin fikrincə, status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqlarımızdan erməni silahlı birləşmələrinin çıxarılması deməkdir.

Dövlət başçısı eyni zamanda vurğuladı ki, Azərbaycan öz növbəsində bütün məsələlərdə Türkiyəni dəstəkləyir, Türkiyənin yanındadır və bəzi hallarda Türkiyəyə qarşı edilən ədalətsizliklərə Türkiyə qədər heyifsilənir və öz sözünü deyir. "Misal üçün, dünən Almaniya Parlamenti tərəfindən ədalətsiz, qərəzli, tarixi yalan üzərində qəbul edilmiş qətnaməni Azərbaycan dərhal qınadı, pislədi, Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat verdi və bu gün mən ölkə Prezidenti kimi bu yalan üzərində qurulan təxribatı bir daha pisləyirəm, qınayıram. Bu, ədalətsizlikdir, ikili standartlardır, tarixin təhrif edilməsidir və buna, təbii ki, biz dözə bilmərik və dözmürük."

Türkiyə-Azərbaycan birliyinin nəinki regionda, dünya miqyasında mühüm amil olduğunu deyən Prezident İlham Əliyev dünya miqyasında böyük güc, "Böyük 20-liyin" üzvü olan Türkiyə ilə birgə icra edilən enerji və nəqliyyat layihələrinin qlobal əhəmiyyət daşıdığını və hər iki ölkəni gücləndirdiyini bildirdi.

Azərbaycan ilə Türkiyə əlaqələrinin iki dövlət əlaqələrindən daha yüksəkdə dayanan, qardaşlıq hüququna söykənən "bir millət, iki dövlət" olaraq keçmişdən gələcəyə uzanan birlik olduğunu söyləyən Baş nazir Binəli Yıldırım öz növbəsində çıxış edərək qeyd etdi ki, Azərbaycanın dostu bizim dostumuzdur, düşməni də bizim düşmənimizdir. "Azərbaycan torpaqlarının 20 faizini illərdir işğal edən ermənilərin hüququ kobud şəkildə pozmalarına artıq "yox" deməyin vaxtı çatıb. Bu məsələni zamana buraxaraq unutdurmaq əsla mümkün deyil. Bir sıra beynəlxalq təşkilatlar, ATƏT, Minsk Qrupu toplanıb yenidən dağılışırlar. İndi artıq vaxtı uzatmaq deyil, həll yolu tapmaq zamanıdır və biz Türkiyə olaraq bunu yaxından müşahidə edirik. Onlara sərf edən məsələdə tez-tez toplanıb qərar qəbul edənlər, Azərbaycanın, Türkiyənin məsələsinə gələndə hərəkət etmək istəmirlər. Bu, ikili standartdır və əsla qəbul edilə bilməz. Nə vaxt ki, Azərbaycan torpaqlarının 20 faizi qaytarılsa, Azərbaycanın suverenliyi tam təmin edilsə, o zaman bu məsələ həll edilmiş olacaq. Bu baxımdan bu məsələni beynəlxalq ictimaiyyətin daha ciddi ələ almasının və ikili standartdan əl çəkməsinin vaxtı çoxdan yetişib."

Almaniya parlamentində erməni "soyqırımı" ilə bağlı əsassız bir qərarın qəbul edildiyinə diqqəti çəkən Baş nazir bunu xoşagəlməz hal adlandırdı və Almaniya-Türkiyə münasibətlərinə zərbə vurduğunu dilə gətirdi.

Türkiyə və Azərbaycanın çox mühüm birgə layihələr həyata keçirdiyini bildirən türkiyəli qonaq onları, sadəcə, Türkiyənin və Azərbaycanın deyil, regionun, hətta Orta Asiyanın, Uzaq Şərqin, Anadolu torpaqları vasitəsilə Avropanın gələcəyinə yönələn layihələr adlandırdı.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Münaqişənin tezliklə həll olunması regionun sabitliyinə xidmət edəcək

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Almaniya Federativ Respublikasına işgüzar səfərə gedib. Berlində dövlətimizin başçısı bir sıra görüşlər keçirib. Almaniya Federativ Respublikasının vitse-kansleri, iqtisadiyyat və enerji naziri Ziqmar Qabriel ilə görüşdə Azərbaycan-Almaniya ikitərəfli əlaqələrinin yüksək səviyyəsindən məmnunluq ifadə edildi, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın yaxşı perspektivlərinin olduğu bildirildi.***




Azərbaycan Prezidenti həmçinin Münxen Təhlükəsizlik Konfransının sədri Volfqanq Fredrik İşinger, "Airbus Group" şirkətinin icraçı vitse-prezidenti Jan Pier Talamoni, Almaniya-Azərbaycan Forumunun idarə heyətinin sədri Hans-Eberhard Şlayer və qurumun üzvləri ilə görüşü oldu.

Prezident İlham Əliyev Berlində Azərbaycan-Almaniya İqtisadi Forumunun açılışında iştirak etdi, Almaniya Federativ Respublikasının vitse-kansleri Ziqmar Qabriel Azərbaycanın dövlət başçısını salamlayaraq bu Forumun keçirilməsindən məmnun olduğunu bildirdi. O, bir neçə gündən sonra Bakıda baş tutacaq "Formula-1" yarışlarının uğurla keçiriləcəyinə əminliyini ifadə etdi.

Forumda çıxış edən Prezident İlham Əliyev Almaniya ilə Azərbaycanın yaxşı tərəfdaş olduqlarını, ölkələrimiz arasında fəal siyasi dialoqun aparıldığını bildirdi. Münasibətlərin iqtisadi əlaqələrin inkişafına da təsir etdiyini deyən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan iqtisadiyyatının inkişafı üçün təhlükəsizlik və sabitlik vacibdir. Son vaxtlar Dağlıq Qarabağda qoşunların təmas xəttində baş verən hadisələrə diqqəti cəlb edən Prezident İlham Əliyev vurğuladı ki, atəşkəs olduqca kövrəkdir, Ermənistan vəziyyətə nəzarət edə bilmir və status-kvo bu cür davam edə bilməz. İşğal olunmuş ərazilərdən bütün işğalçı qüvvələrin çıxarılmasının vacibliyini vurğulayan dövlətimizin başçısı Avropanın indi üzləşdiyi miqrasiya problemi nəticəsində yaranan humanitar böhranı Azərbaycanın 20 il bundan əvvəl yaşadığını qeyd etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmədiyi üçün Ermənistana sanksiyaların tətbiq olunmamasından təəssüfləndiyini bildirdi. "Münaqişənin tezliklə həll olunması regionun sabitliyinə xidmət edəcək", - deyən Prezident İlham Əliyev bildirdi ki, bu çətin vəziyyətə baxmayaraq, Azərbaycan uğurla inkişaf edir. Son 25 ildə ölkəmizdə çox güclü siyasi və iqtisadi islahatlar həyata keçirilib, bütün azadlıqlar təmin olunub. "Biz Ermənistan ilə atəşkəs müddətini ölkəmizin inkişafına sərf etmişik", - deyən dövlətimizin başçısı Azərbaycanın hazırda qlobal enerji layihələrinin həyata keçirilməsində mühüm rol oynadığını vurğuladı.

Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun bu il istifadəyə veriləcəyinə ümidvar olduğunu, Bakıda ən böyük dəniz limanının tikintisinin aparıldığını və bununla da ölkəmizin gələcəkdə logistik mərkəzə çevriləcəyini bildirdi.

**AZƏRTAC-ın materialları əsasında**

*15 İyun - Milli Qurtuluş Günüdür*

# Müasir Azərbaycan Ordusunun qurucusu

Azərbaycanda ordu quruculuğu ulu öndər Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Bildiyimiz kimi, o hələ keçmiş sovetlər zamanında respublikamıza rəhbərlik etdiyi dövrdə bütün qadağalara baxmayaraq, ucqar bir respublikada hərbi ənənələrin bərpa edilməsi və gənc nəslin hərbi peşələrə marağının gücləndirilməsi məqsədi ilə böyük işlər görüb. Təkcə bir faktı vurğulamaq kifayət edər ki, ulu öndər 1971-ci ildə Bakıda ibtidai hərbi təhsil müəssisəsini yaratmaqla Azərbaycanda gələcək ordu quruculuğu strategiyasının təməlini qoyub.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Sovet İttifaqının süqutundan sonra ölkəmiz özünün ən çətin günlərini yaşayırdı. Həmin vaxtlar qonşu Ermənistan öz məkrli siyasətini həyata keçirmək məqsədilə Azərbaycana aramsız hücumlar etdi. Qarabağ uğrunda döyüşlər getgedə şiddətlənirdi. Ordumuz hələ tam formalaşmamışdı. Ayrı-ayrı hərbi birləşmələr isə vahid komandanlıq altında deyil, pərakəndə fəaliyyət göstərirdi.



Belə çətin, mürəkkəb bir vaxtda ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Bu tarixi qayıdışdan sonra mühüm hərbi islahatlara start verildi və orduda yüksək nizam-intizam formalaşmağa başladı. Əsgər və zabit heyətində ruh yüksəkliyi yarandı. Bütün ağır sınaqlarda xalqımızın digər təbəqələri kimi, ordumuzun şəxsi heyəti də ulu öndərin məqsəd və ideyalarının həyata keçməsi üçün var qüvvəsini əsirgəmədi. Elə buna görə də biz bu gün böyük cəsarət və qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda ordu quruculuğu birbaşa ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

"Zəngin hərbi tarixə malik Azərbaycan xalqı öz Silahlı Qüvvələrinin əzm və qüdrətinə arxalanaraq çətin və ağır dövlət quruculuğu yollarında daha inamla addımlayacaq və yeni zəfərlər qazanacaq!" - deyən xalqımızın böyük oğlu, müdrik sərkərdə Heydər Əliyev hakimiyyətə qayıdışından sonra cəbhə xəttinə dəfələrlə səfər edərək döyüşən hərbi bölmələrimizin əsgər və zabitlərilə görüşdü, Vətənimizin çətin və həlledici durumda olduğunu vurğuladı. O bildirdi ki, xalqımızın böyük qurbanlar hesabına qazandığı müstəqilliyi və dövlətçiliyi qoruyub saxlamaq üçün ilk öncə Azərbaycan Ordusunun üzərinə ağır yük düşür. Ulu öndər tövsiyə edirdi ki, ordu sıralarında xidmət edən hər bir azərbaycanlı üzərinə düşən şərəfli vəzifənin məsuliyyətini dərindən hiss etməlidir.

"Müstəqil dövlətin özünün qüdrətli ordusu olmalıdır" fikrini dönə-dönə vurğulayan ümummilli liderimiz bu məqsədlə ordu quruculuğunda elmi əsaslara söykənən hərbi strategiyanın həyata keçirilməsini dövlətin əsas inkişaf istiqamətlərindən hesab edirdi və bildirirdi ki, ordu quruculuğu çox mühüm və məsuliyyətli vəzifədir, bundan ötrü Azərbaycan cəmiyyətində tutduğu mövqeyindən və mənsubiyyətindən asılı olmayaraq hər kəs əlindən gələni etməlidir.

Hakimiyyətdə olduğu dövrdə ulu öndərin böyük uzaqgörənliklə həyata keçirdiyi islahatlar çox qısa zaman ərzində Azərbaycana uğurlar gətirdi. Müasir ordumuzun qurucusu olan Heydər Əliyev ölkədə hərbi təhsil sisteminin yenidən qurulmasına və bu istiqamətdə sivil dünya təcrübəsindən ustalıqla bəhrələnməyə nail oldu. İndi Azərbaycanın hərbi təhsil ocaqlarının məzunları olan görkəmli hərb xadimlərimiz, generallarımız və döyüş təcrübəsinə malik olan hərbçilərimiz tam haqlı olaraq özlərini Heydər Əliyev məktəbinin yetirmələri hesab edirlər. Ümummilli liderin xeyir-duası ilə hərbi peşələri seçən yüzlərlə azərbaycanlı zabit bu gün də ordu quruculuğuna dəyərli töhfələrini verir.

Böyük zəka və təşkilatçılıq qabiliyyətinə malik olan ulu öndərimizin parlaq ideyaları bu gün də həyata keçirilir. Bizim fəxr etməyə haqqımız çatır ki, hazırda Azərbaycan dövlətinin taleyi etibarlı əllərdədir. Ulu öndərin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində Azərbaycan dünya birliyində özünə layiqli yer qazanaraq əksər beynəlxalq tədbirlərdə, nüfuzlu qurumlarda təmsil olunur. Prezidentimizin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər isə regionda Silahlı Qüvvələrimizin lider olmasına gətirib çıxarıb. Artıq ölkəmizin bütün sahələrində, o cümlədən ordu quruculuğunda əldə olunan nailiyyətlər göz qabağındadır. Biz əminik ki, torpaqlarımız tezliklə işğaldan azad olunacaq, Xankəndidə qələbə bayrağımız dalğalanacaq.

**Mətanət İMAMQULUYEVA,
Cəmşid Naxçıvanski adına
Hərbi Liseyin müəllimi**

Ön xətdən reportaj

# “Məqsədimiz işğalçıları torpaqlarımızdan qovmaqdır”

***Enişli-yoxuşlu yolla əsgərlərimizin müdafiə mövqeyinə gəlib çatdıq. Bizi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Kəpəz Həsənov qarşıladı. Kiçik komandir əvvəlcə düşmən haqqında məlumat verdi. Bildirdi ki, qarşımızda yerləşən postlara düşmən snayperlər yerləşdirib. Biz isə öz ehtiyatımızı heç vaxt əldən vermirik. Dərin səngərlər qazmışıq, etibarlı müşahidə məntəqələri yaratmışıq.***



Həmsöhbət olduğum manqa komandiri Tərtər rayonunun Qapanlı kəndindəndir. Onun doğulub boya-başa çatdığı kənddə düşmən mövqeləri arasında məsafə olduqca yaxındır.

- Gözümü açıb özümü dərk edəndən güllə səsi eşitmişəm, - deyir Kəpəz Həsənov. - Nə qədər ki, torpaqlarımız erməni işğalı altındadır, silahı yerə qoymaram. Ermənilər tez-tez kəndimizi gülləyə tuturlar. Belə bir vaxtda mən necə kənarda qala bilərəm? Qardaşım Qoşqar Həsənov zabitdir, cəbhə bölgəsində xidmət edir. Məqsədimiz erməni işğalçılarını doğma torpaqlarımızdan qovmaqdır.

Çavuş Kəpəz Həsənov silahdaşlarının sonuncu döyüşlərdə göstərdiyi hünərdən də söz açdı.

- Kiçik çavuş Tural Bəxtiyarov, əsgərlərdən Elməddin Bəşirov, İsmət Namazov, Mehrab Cavadov, Elşən Muradov və başqaları düşmən üzərinə əsl cəngavər kimi getdilər. Döyüşçülərimizin şücaəti qarşısında düşmənin geri çəkilməkdən başqa yolu qalmadı.

Gərgin döyüşlər arxada qalıb, yenə atəşkəs hökm sürür. Ancaq bu o demək deyil ki, müharibə bitib. Nə qədər ki, ermənilər işğalda olan ərazilərimizdən geri çəkilməyiblər, mübarizəmiz davam edir. Biz müharibənin tərəfdarı deyilik. Ancaq ərazi bütövlüyümüzü bərpa etmək üçün bütün vasitələrdən istifadə etmək məcburiyyətindəyik.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Vətənin fədakar oğulları

*...Ramil, Rövşən, İsrafil, İsmayıl, Nemət, Rəşad döyüş növbəsindən səhər qayıtmışdılar. Dincəlməyə hazırlaşırdılar. Zabit Taleh Balabəyov onlara müraciət edərək: "aprel döyüşlərindəki fədakarlığınız, arzu və istəkləriniz barədə müxbir sizinlə söhbət aparacaq," - dedi. Bu xəbər, deyəsən, hər birinin ürəyincə oldu. Artıq dincəlmək də yaddan çıxdı... Gümrah, təmkinli görünən döyüşçülərin qürurlu baxışlarından qəhrəmanlığın - döyüşdən qalib çıxan igidlərin xarakterik cizgiləri açıq-aydın sezilirdi.*

Onların qətiyyətliliyi, cəsurluğu və qorxmazlığı ilə də yoldaşlarına həmişə nümunə göstərildiyini deyən zabit doğma el-obaya bağlı olan döyüşçülərdə vətənpərvərliyin təbliğ edilməsinin vacibliyini vurğulayır. "Şəxsi heyətin mənəvi-psixoloji hazırlığı döyüş təlimləri ilə paralel aparılır. Keçirilən dərslərdə xalqımızın zəngin milli-mənəvi dəyərləri onlara aşılanır. Qarabağ müharibəsinin birinci mərhələsində ərazi bütövlüyümüz uğrunda canını qurban verən şəhid qəhrəmanlarımız haqqında söhbətlər aparırıq. Keçmiş döyüşçülər, ictimaiyyət nümayəndələri vaxtaşırı ön xətdə hərbçilərlə görüşlər təşkil edir. Məktəblilərin əsgərlərə ünvanladıqları məktublar da şəxsi heyətin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində mühüm rol oynayır," - deyə zabit aprel döyüşlərində fədakarlıq göstərmiş Vətən oğullarını bizə təqdim edir.

Qaraşın, hündürboy gənc - kiçik çavuş Ramil Qələndərov manqa komandiridi. Yoldaşları arasında şeir, sənət, söz həvəskarı kimi sevilən Ramil əslən Laçın rayonunun Qarakeçdi kəndindəndi. Sovet dönəmində Qələndərovlar ailəsinin məşğuliyyəti heyvandarlıq və maldarlıq olduğundan onlar qışı aran Qarabağda, Füzulidə, yayı isə doğma Laçında keçiriblər. Döyüşçü yoldaşlarının Lələtəpə istiqamətində göstərdikləri igidliklərdən danışmaq istəyir Ramil. "Aprelin 2-də Rövşən Rəhimov yaralanır. Hospitala çatdırılanda həkimləri tələsdirir ki, ona tez tibbi yardım göstərsinlər, çünki döyüş yerinə qayıtmalıdır. Həkimlərin təzyiqinə baxmayaraq, geriyə, bizim yanımıza dönür. Bax, budur mərdlik, döyüşçü yoldaşlığı. Şəhid olan döyüşçümüz Ruhin Qəhrəmanovun düşmənə nifrəti həddsiz idi. O, düşmənin necə canlı qüvvəsini məhv etmişdi son döyüşlərdə. Ruhin ana yurdu Cəbrayılı erməni tapdağından azad etmək üçün silaha sarılıb Vətənimizin müdafiəsinə qalxmışdı. Allah bütün şəhidlərimizə rəhmət eləsin."

Öyrənirəm ki, Ramilin 2 qohumu 1992-ci ildə Laçın rayonu uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşaraq şəhid olub. Hər iki məzar Bakıda Şəhidlər xiyabanındadır. Onun ən böyük arzusu Ali Baş Komandan tərəfindən döyüş əmri veriləcəyi təqdirdə, ölümündən sonra "İgidliyə görə" medalına layiq görülən şəhid dostu Ruhinin qisasını almaq və torpaqlarımızı erməni cəlladlarından tamamilə təmizləməkdir.

Söhbətimi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rövşən Rəhimovla davam etdirirəm. 1979-cu ildə Füzuli rayonunun İşıqlı kəndində anadan olub. Kəndlərinin tarixi ilə bağlı Rövşən deyir ki, camaat zaman-zaman erməni fitnəkarlıqları ilə qarşılaşıb. "Fürsət düşən kimi onlar havadarlarından dəstək alıb milli zəmində qarışıqlıq salıblar."

1992-1993-cü illərdə gedən ağır döyüşlərdə onun yaxın qohumları - Qorxmaz Rəhimov şəhid olub, Zaur Rəhimov isə itkin düşüb.

Ordumuzun əks-həmlə əməliyyatlarında yaralanıb ilk tibbi yardımdan sonra yoldaşlarının yanına dönən Rövşən deyir ki, bizi bu döyüşlər bir daha sınağa çəkdi. "Döyüşçülərimiz düşmənin mövqeyinə daxil olanda gördük ki, erməni əsgərləri pərən-pərən düşüblər, silahlarını və yaralı yoldaşlarını atıb qaçıblar. Rabitə əlaqələrimiz yüksək səviyyədə qurulmuşdu. Çavuş İsmayıl Nəsirov bölmələr arasında rabitəni doğru və dəqiq idarə edirdi. Bu döyüşlərdə aldığım ən böyük mükafatım kiçik çavuş Üzeyir Nəcəfovu yaralı halda ərazidən çıxartmağım oldu. Hazırda hospitaldadır. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib."

Dörd övlad atası olan Rövşən böyük oğlu Səfayılın C.Naxçıvanski adına Hərbi Liseyə hazırlaşdığını da söyləməyi yaddan çıxartmadı.

Söhbətə qoşulan kiçik çavuş İsrafil Əhmədov isə əslən Cəbrayıl rayonunun Şahvəlli kəndindən olduğunu söyləyir. "Erməni silahlı dəstələrinin torpaqlarımıza hücumları başlayanda əmim oğlu İlham Əhmədov da rayon ərazi özünümüdafiə taboruna yazılan ilk könüllülərdən biri idi. Tərtər uğrunda gedən döyüşlərdə də fəal iştirak edib. Qarabağ müharibəsi veteranıdır. Bu gün onun döyüş yolunu mən davam etdirirəm."

Kiçik çavuş Nemət Haqverdiyev Füzuli rayonunun Arayatlı kəndinin sakinidir. O da döyüşçü yoldaşları kimi Vətən torpaqlarının bütövlüyü uğrunda Ali Baş Komandanın əmrinə hər an hazır olduğunu deyir.



N.Haqverdiyev Müdafiə nazirinin əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəceli medalı ilə təltif olunub.

Fədakar döyüşçülərdən biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İsmayıl Nəsirovdur. 1992-ci ildə Füzulinin Qarakollu kəndində dünyaya göz açan İsmayıl rabitəçidir. O, xidmət etdiyi sahənin ciddiliyini və məsuliyyətini dərindən dərk etdiyi üçün artıq işinin peşəkarı olub. "Rabitəçi həm döyüşür, həm də bölüklər arasında davamlı əlaqəni yaradır. Bizim də bu döyüşlərdə əsas üstünlüyümüz o idi ki, rabitə əlaqəmiz güclü qurulmuşdu. Düşmənə rabitə vasitələrini işlətməyə də heç imkan vermədik," - deyə İsmayıl aprel döyüşlərini belə xatırlayır: “Bizim ordumuz güclüdür. Əsgərlərimizdə döyüş ruhu çox yüksəkdir. Onlar hər addımda şücaət göstərməyə hazırdırlar.”

Dayısı Füzuli Səfərovun (ilk könüllülərdən olub) 1994-cü ildə Horadiz əməliyyatında itkin düşdüyünü deyən İsmayılın bir qarabağlı kimi ən böyük arzusu düşmən işğalındakı doğma kəndinin və rayonlarımızın azad olunduğu günü görməkdir.

...Bir azdan Ramil, Rövşən, İsrafil, İsmayıl, Nemət və Rəşad düşmənlə üzbəüz mövqelərə dönəcəklər. Onlar yenidən müqəddəs Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayanaraq, döyüş növbəsini həyata keçirəcəklər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**M.MÖHBALIYEVİNDİR**

*Təlim*

# Döyüş ovqatı, qələbə əzmi

*Cəbhə bölgəsində yerləşən hərbi hissəyə yolumuz yaşıllığa bürünmüş dağların ətəyindən keçir. Ətrafdakı əsrarəngiz gözəlliyə baxdıqca yaddaşımı vərəqləyib bir anlıq ötən illərə qayıdıram. Qulaqlarıma güllə səsləri, top gurultusu gəlir. 1993-1994-cü illərdə bu yaşayış məntəqələri uğrunda qanlı döyüşlər gedirdi. Düşmən geri çəkilmək istəmirdi. Amma qəsbkarlar cəsur döyüşçülərimizin qarşısında çox dayana bilmədilər. Güclü həmlədən sonra ermənilər geri sıxışdırıldı. İndi gözəlliyini seyr etdiyimiz bu yerlər yağılardan azad olundu. Atılan mərmilər evləri dağıdıb yerlə-yeksan etmişdi. Hər tərəfə müharibənin qanlı kölgəsi düşmüşdü.*

O ağır döyüşlərdə dağıdılan evlər indi yenidən tikilib. Yollar salınıb, kənd-kəsəklər abadlaşdırılıb, müharibədən heç bir qanlı iz qalmayıb. Burada yaşayan insanların əməyi sayəsində hər şey yenilənib, hər şey təzələnib və gözəlləşib. Yol boyu bu gözəlliyi seyr edə-edə hərbi hissəyə çatırıq.

Səhər yerbəyeri təzəcə qurtarmışdı. Komandirdən müvafiq tapşırıqlar alan şəxsi heyət təlim və xidmət yerinə tələsirdi.

Polkovnik-leytenant Elşən Sanayev şəxsi heyətin hazırlığından danışaraq bildirdi ki, döyüş hazırlığı planına uyğun olaraq zabit və əsgərlərimiz təlim keçib döyüş vərdişlərini artırırlar. "Başlıca vəzifələrimizdən biri xidmətdə ilk addımlarını atan gənc əsgərlərə hərbi bilikləri öyrətməkdir. Bu sahəyə məsuliyyətlə yanaşır, üzərimizə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışırıq."



Mayor Mirəhməd Seyidov da söhbətimizdə dedi ki, ordu sıralarına yeni çağırılmış gənc əsgərlərlə fərdi söhbətlər aparılır. "Onlara hərbi hissənin keçdiyi şərəfli döyüş yolundan, hərbi xidmət haqqında geniş məlumat verilir. Döyüşlərdə hünər və qəhrəmanlıq göstərmiş zabit və əsgərlərdən nümunə götürən şəxsi heyətin döyüş ovqatı, qələbə əzmi yüksəkdir."

...Yaşıllıqlar qoynunda məşğələ keçən minaatanların yanındayıq. Dərsin gərgin anlarıdır. Əsgərlər cəld və çevik hərəkətlərlə minaatan qurğusunu "səfər" və "döyüş" vəziyyətinə gətirirlər. Bizi burada heyət nəfərlərinə müxtəlif komandalar verən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elnur Əzizov qarşılayır.

- Müharibə şəraitində yaşadığımız indiki günlərdə biz hərbçilərin üzərinə böyük vəzifələr düşür, - deyə kiçik çavuş sözə başladı. - Əsas amalımız ordu sıralarında ilk addımlarını atan gənc əsgərlərə hərbi bilik və döyüş vərdişlərini öyrətməkdir. Bu gün minaatan qurğusunun sirlərini öyrənən əsgərlər ordu sıralarına bir müddət əvvəl çağırılıblar. Qısa vaxt ərzində lazımi bilik və vərdişlərə yiyələniblər.

Manqa komandiri söhbətinə davam edərək xidmətdə fərqlənən əsgərlərdən də söz açdı. Bildirdi ki, heyət nəfərləri, bir qayda olaraq, tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Təlimlərdə həmişə hədəfi dəqiq vuraraq hazırlıqlarını nümayiş etdirirlər. Belə bacarıqlı əsgərlərdən Seyfəl Fətullayev, Xəyal Həbullahov və başqaları hərbi biliklərini artırmağa daha böyük maraq göstərirlər.



Minaatan qurğusunun taktiki-texniki xüsusiyyətlərini dərindən yiyələnməyə çalışan bacarıqlı əsgərlərdən xoş təəssüratlarla ayrıldıq. Heyət nəfərləri isə məşğələlərini davam etdiridilər. Kiçik çavuş Elnur Əzizovun əmr və tapşırıqlarını yerinə yetirən əsgərlər cəld hərəkətlərlə minaatan qurğusunu "səfər" və "döyüş" vəziyyətinə gətirirlər. Onların səsi yaşıllığa bürünmüş dağlıq ərazidə əks-səda verir. Əminəm ki, döyüş hazırlığı yüksək olan bu gənclər gələcək xidmətlərində böyük uğurlar qazanacaq, qəhrəmanlıq nümunələri göstərəcəklər.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu",
fotolar müəllifindir**

*Gənc zabitlərimiz*

# "Hərbi xidmət həyat amalımdır"

*...İlk baxışdan məndə xoş təəssürat yaradan leytenantın qarşı tərəfi bir qədər narahatlıqla, bir qədər diqqətlə nəzərdən keçirməsi diqqətimdən yayınmadı. Hərbi xidmətə təmas xəttində, olduqca mühüm mövqelərdən birində belə məsuliyyətdən fərəhləndim və gənc zabiti yaxından tanımaq istədim. Mayor Nemət Rəhimov leytenantı savadlı, qabiliyyətli, səmimi zabit kimi xarakterizə elədi.*

Zabitin əsgərlərə münasibəti könlümə yatmışdı. Əsgər Şahin Əlirzayevin niyə qayğılı olduğunu soruşurdu. Ciddi heç nə olmadığını öyrənincə bayaqdan bəri ürəyini üzən düşüncələr çiləndi, üz-gözünü təbəssüm bürüdü...

Leytenant Emin Kərimov Siyəzən rayonundandır. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. "Təsadüflərə heç zaman inanmamışam. Ancaq bölgü ərəfəsində könlümdən bu istiqamətdə xidmət eləmək keçirdi. Belə də oldu. İki ildi burada xidmət edirəm. Dayandığımız mövqenin necə məsuliyyətli olduğunu xatırlatmağa ehtiyac duymuram. Burada xidmət edən əsgərlərimizin hər biri qəhrəmandır", - deyir gənc zabit.

Eminin 3 yaşı olanda əmisi Elsevər Füzuli rayonunda döyüşdə şəhid olub. Bu, onun yaddaşından hələ də silinməyib. "Biz hərbi mundiri əmi-dayı qisası almaq üçün geyinməmişik. Vətənimizin qisasını alacağıq, torpaqlarımızı işğaldan azad edəcəyik", - deyən taqım komandirinin milli-xəlqi ruhumuzu yaşada-yaşada bəşəri duyğularla yaşaması, təbii ki, təqdir olunmalıdır.

- Əsgərlərimizlə xalqımızın tarixindən, müharibələrdən, qələbəni şərtləndirən amillərdən, qəhrəmanlıqlardan söhbətlərimiz həmişə maraqlı alınır. Gənclər belə söhbətlərdən çox şey öyrənirlər, - leytenant Emin Kərimov asudə vaxtın təşkilində belə söhbətlərin aparılmasını vacib hesab edir.
- Nə vaxtsa eşitdiyim bir kəlamı heç zaman unutmaram: "Torpaq qorunanda Vətənləşir". Əsgərlərimizə məhz bu mətləbi çatdırmağı həm də vətəndaşlıq borcu bilirəm.

Öyrənirik ki, əsgərlərin döyüş hazırlığı yüksəkdir. Onlar atıcı silahların istismar xüsusiyyətlərini mükəmməl mənimsəyiblər. Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan əsgərlərimiz atəşkəs pozulanda düşməni qısa müddətdə susdururlar.



Biz orada olanda əsgərlərin "Azərbaycan Ordusu" qəzetinin son saylarını mütaliə elədiyinin şahidi olduq; əsgərlər torpağı qoruyurlar, torpağı qoruyanlar haqqında yazıları da həvəslə oxuyurlar.

"Ən nümunəvi əsgərlər kimlərdir?" - soruşdum. Leytenant gülümsündü. Bu, çarəsiz təbəssümüydü. "Hamısı nümunəvi əsgərdi, hamısı Vətəni sevir, hamısı hərbi nizamnamələrin tələblərinə ciddi əməl edir," - dedi. Qürurla bir qədər aralıda dayanmış əsgərlərə baxdı...

Leytenantın döyüş növbəsindən qayıdan əsgərlərlə ayaqüstü mükalimələşməsini, əsgərlərin komandirlərini sayğıyla dinləməsini zabit-əsgər münasibətinin səviyyəsinin təsdiqi bildim...

- Aprel döyüşləri təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Ali Baş Komandanın hücum əmrinə müntəzirik, - leytenant Emin Kərimov əminliklə dedi...

..."Hərbi xidmət həyat amalımdır", - deyən taqım komandirindən və onun əsgərlərindən xoş təəssüratlarla ayrıldıq...

**Mübariz MUSAYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

**Ali Baş Komandan İlham ƏLİYEV:**

*"Bugünkü gənclər - müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir... Doğrudan da, bizim gələcəyimiz etibarlı əllərdədir. Azərbaycanın gələcək inkişafı gənclərin əlində olmalıdır. Gənclər bilikli, savadlı, peşəkar və vətənpərvər olmalıdırlar."*

*Vətənpərvərlik*

# Sabahımızın zabitləri





***Müstəqil düşüncə tərzinə sahib, Vətənimizin gələcəyini layiqincə təmin edə bilən vətənpərvər nəslin yetişməsi bizdə qürur hissi yaradır.***

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev gənclərin üzərinə düşən vəzifələri xatırladaraq söylədiyi "Bugünkü gənclər - müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir... Doğrudan da, bizim gələcəyimiz etibarlı əllərdədir. Azərbaycanın gələcək inkişafı gənclərin əlində olmalıdır. Gənclər bilikli, savadlı, peşəkar və vətənpərvər olmalıdırlar" fikri hər bir gəncimizi vətənpərvər, Vətənə sədaqət ruhunda yetişməyə ruhlandırır.

Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə bir qrup kursantla görüşüb, onlarla hərb sənətinə, bu təhsil ocağına gətirən hisslər və arzuları haqqında söhbət etdim. Dəyirmi masanın ətrafında liseyin birinci kursunu yüksək intizam göstəriciləri, əla və yaxşı qiymətlərlə bitirən gənclər - Nəsir Nəbiyev, Böyükağa Ağayev, Nihat Vəliyev, Elmar Əhmədli, Samir Ağababayev, Elçin Əsgərov, Seymur Sayadlı, Tamerlan Rzayev, Mehrac Hüseynov, Dilən Məhərrəmov, Fərid Mirzəzadə, Vüsal Allahverdiyev, Süleyman Ağayev, Qurban Qurbanov və Fuad Tahirli əyləşmişdilər. Bu gənclər müstəqil Azərbaycanın qüdrətli ordusunun gələcək zabitləridir. Onlar öncə Vətəni qorumaq peşəsini seçdiklərinə və aprelin əvvəllərində hərbçilərimizin əldə etdikləri uğurlara görə fəxr etdiklərini dilə gətirərək söhbətə başladılar.

Kursant Vüsal Allahverdiyev Füzuli rayonunun İşıqlı kəndində anadan olub. Atəşkəs dövründə yaşamağımıza baxmayaraq, ərazilərimizin, yaşayış məntəqələrimizin mütəmadi olaraq düşmən tərəfindən hədəf seçilməsinin şahidliyi ilə böyüyüb. Böyüdükcə işğalçıları əzəli torpaqlarımızdan qovub çıxarmaq hissi ilə yaşayıb. Əlaçı, intizamlı kursantın düşüncə tərzinə görə hər bir Azərbaycan vətəndaşı ilk növbədə Vətənin əsgəri olmalı, onun etibarlı müdafiəsi üçün hərbin sirlərinə yiyələnməli və yüksək fiziki hazırlığa malik olmalıdır.

Gəncə şəhərindən olan kursant Qurban Qurbanov isə Birinci Qarabağ müharibəsində Murov istiqamətində şəhid olan əmisinin adını daşıyır. Nənəsi şəhid oğlunun adını ona böyük arzularla yaraşdırıb. O da əməllərində və gələcək həyatında Vətəninə layiq övlad olacağına şəhid əmisinin ruhu qarşısında söz verib. Qurban böyüdükcə sakit, təmkinli davranışı ilə yaşıdlarından seçilirdi. O, baxışlarını məchul bir nöqtəyə zilləyərək söylədi ki, damarlarımda qanı axan xalqımın qəhrəman oğlu, igid Gəncə xanı Cavad xanla fəxr edirəm. "Vətənimizi canından əziz bilməsi, düşmənin yalnız onun cəsədi üstündən adlayaraq torpaqlarımıza ayaq basa biləcəyi sözləri ilə əsrlərdir qürur duyuruq. Cavad xanın timsalında igid, qəhrəman əcdadlarımızın yolunu davam etdirəcəyimə and içmişəm."

Sinəsində Qarabağ dərdi daşıyan Azərbaycan gənci əcdadını, dahilərini və tarixdə iz qoyan şəxsiyyətlərini hörmətlə anaraq Vətənə borcunu ödəmək üçün fürsət güdür və bu yolda milli qürur, mərdlik rəmzinə çevrilən igid oğulları özünə nümunə bilir. İnanırıq ki, gənclərimiz dövlətin onlara göstərdiyi diqqət və qayğını Vətənə, xalqa tükənməz məhəbbətləri, torpaqlarımızın qorunaraq əzəli sərhədlərimizin möhkəmlənməsinə bəxş edəcəkləri layiqli töhfələrlə doğruldacaqlar.

Bayaqdan yoldaşlarını diqqətlə dinləyən kursant Dilən Məhərrəmov da söhbətə qoşulur. O, Yevlax rayonunun Salahlı kəndindəndir. Vətənpərvərlik tərbiyəsinin bünövrəsinin ailədə qoyulduğunu davamlı olaraq vurğulamışıq. Dilənin də atası və üç dayısı Birinci Qarabağ müharibəsində iştirak ediblər. Dayılarından biri 1993-cü ildə Ağdam istiqamətində şəhid olub. Bu gün böyük qardaşı Noel şəhid dayısının adını daşıyır. Kursant sevinclə qardaşının bu payızda Vətənə müqəddəs övlad borcunu ödəmək üçün əsgər gedəcəyindən danışdı. Söhbətini həvəslə dinlədiyim bu gəncin hərb sənətinə, Vətənə sevgisi ilə qürur duyuram.

Kursant Fərid Mirzəzadəyə yoldaşlarının xüsusi hörmətlə yanaşması diqqətimi cəlb etmişdi. O, Beyləqan rayonunun Milabad qəsəbəsində dünyaya göz açıb. Elə uşaq yaşlarından Horadiz döyüşlərində iştirak edən, birinci qrup əlil olan atasının dəyərli nəsihətlərini, 1993-cü ildə Füzuli istiqamətində şəhid olan dayısının dillərə dastan olan qəhrəmanlığını dinləyərək böyüyüb. Atasının söylədiyi "bu həyata bir dəfə gəlirik, gərək elə yaşayaq ki, dönüb arxaya baxanda utanmayaq və başımızı dik tutaq" kəlmələri onun həyat amalına çevrilib. Söhbətini bitirərkən söylədiyi "Vətən sevgisi insanın qəlbinə hakim kəsilən bir ümmandır" sözlərinə isə bütün yoldaşları şərik oldular.

Bu gün istər ali hərbi məktəblərdə təhsil alan, istərsə də Silahlı Qüvvələrimizdə xidmətlərini davam etdirən liseyin məzunları öz nizam-intizamlaрı, vətənpərvərlikləri, bilik və bacarıqları ilə seçilirlər. Kursant Fuad Tahirli ilə söhbətimdən sonra onun da gələcəkdə liseyin adını yüksəklərə ucaldacağını düşündüm. O da elə uşaq yaşlarından sevib bu sənəti. Hərbi formaya sözlərlə ifadə olunmayan bir istəyi qəlbinin dərinliklərində məskən salıb. Atasının Hərbi Dəniz Qüvvələrinin zabiti olması ilə fəxr edir. Ailədə dörd qardaşdılar, dördü də atalarının yolunu davam etdirəcəklərinə söz verib. Ailənin böyük övladı Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul zamanı yüksək bal topladığı üçün təhsilini qardaş Türkiyədə davam etdirir. Hazırda üçüncü kursdadır. 11 və 6 yaşlarında olan kiçik qardaşlar da indidən hərbçi olmaq istəyirlər. Fuad deyir ki, hər dəfə evə gedəndə qardaşları onun formasını geyinmək üçün mübahisə edirlər.

"İllərdən bəri düşmən əlində dustaq olan əzəli yurd yerlərimizdə üçrəngli bayrağımızın dalğalanması hər birimiz üçün ən müqəddəs arzudur. Əgər döyüşlər başlayarsa, kursant libasımızı döyüşçü formasına dəyişməyə hazırıq" sözləri isə kursant Elmar Əhmədliyə məxsusdur.

Kursant Tamerlan Rzayevdə də bu peşəyə sevgi elə uşaq yaşlarından yaranıb. O öz düşüncələrini bizimlə bölüşərək dedi:

- Hərbi peşə insandan fiziki hazırlıq, nizam-intizam, dövlətə, Vətənə sədaqət, mərdlik, mətinlik tələb edir. Bu müsbət keyfiyyətlərin formalaşmasında müəllimlərimizin rolu əvəzsizdir. Bizlərin vətənpərvər, bilikli və mübarizəyə hazır gənclər kimi yetişməsi üçün liseydə hər cür şərait yaradılıb. Buna görə də dövlətimizə minnətdarıq.

Səmimiyyəti oynamaq olmur… Bir baxış, bir cizgi yetərlidi ki, qarşımızdakının kimliyini anlaya biləк. Bu gün mənim qarşımda əyləşən gənclər sadəcə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alan bir qrup kursant deyil, Vətənimin bütövlüyü naminə alışıb yanan məğrur gəncliyimizdi.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

İyunun 6-dan 10-dək Tbilisi şəhərində (Gürcüstan) mobil təlim qrupunun əsas əlaqələndirici zabitləri üçün "NATO-da informasiya və psixoloji əməliyyatlar" mövzusunda, eləcə də Avropa İttifaqının Şərq Tərəfdaşlığı dövlətləri üçün ümumi təhlükəsizlik və müdafiə siyasəti üzrə tanışlıq kursları, Kanzas ştatında (Amerika Birləşmiş Ştatları) "Saber Guardian 2016" təliminə hazırlıq tədbiri, Oberammerqau şəhərində (Almaniya Federativ Respublikası) döyüş hazırlığı qiymətləndirmə kursu, iyunun 6-dan 24-dək Karaçi şəhərində (Pakistan) standart əməliyyat taktikası kursu keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

* * *

İyun 6-dan 12-dək Türkiyə Respublikasında çoxmillətli birgə xüsusi təyinatlı qüvvələr təlimi keçirilir.

Təlimdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri ilə yanaşı, Türkiyə, Bolqarıstan və Gürcüstan hərbçiləri də iştirak edirlər.

* * *

ATƏT sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 8-də Azərbaycan Respublikası Xocavənd rayonu Kuropatkino kəndinin şərqindən keçən Ermənistan və Azərbaycan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan Silahlı Qüvvələrinin nəzarət etdiyi ərazidə ATƏT sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Piter Şvedberq keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Jiri Aberle keçirəcəklər.

* * *

***7 iyun 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 32 dəfə pozub.

Ağdam rayonunun Sarıcalı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Medallı igidlərimiz

# “Onlar şəhidlikləri ilə bizə örnək oldular”



Şəhidlik ən uca zirvədir...
Şəhidlik ölümlərin ən şərəflisidir...

Həyat hər kəs üçün şirindir. Kim hələ ömrünün bahar çağında qorxmadan ölümə meydan oxuyar? Və ya bu cəsarəti, mərdliyi, qorxmazlığı hansı hiss onlara aşılaya bilər? Yanliz Vətən sevgisi!

Onlar qəlblərindəki Vətən, xalq, millət sevgisi ilə girdilər döyüş meydanına. Çünki illər əvvəl bu torpaqlarda soydaşları, qardaş-bacıları öldürülmüşdü, yurd-yuvalarından didərgin salınmışdı. Buna görə də onların ürəyi intiqam hissi ilə alovlanırdı. Belə bir vaxtda, erməni qoşunları cəbhə xəttində təxbirat törətmişdi. Azərbaycan Ordusunun qorxmaz döyüşçülərinin ayıq-sayıqlığı və peşəkarlığı nəticəsində bir neçə gün ərzində düşmən darmadağın edildi. Hərbçilərimiz qorxmadan döyüş meydanına atıldılar, mərdliklə döyüşdülər. Əfsanəvi şücaəti təkcə el-obasina deyil, bütün dünyaya səs salan Milli Qəhrəmanımız Mübariz İbrahimov kimi cəsur oğulların qısa, lakin şərəfli ömür yolunu özlərinə örnək bildilər. Azərbaycan Ordusunun gücünü, qüdrətini bütün dünyaya göstərdilər. Ölümdən bir an belə qorxmadan döyüş meydanına atıldılar. Erməni əsgərləri kimi nə qorxub gizləndilər, nə də silah və texnikalarını döyüş meydanında qoyub qaçdılar. Azərbaycan xalqının dəstəyini, güvənc hissini dayaq bilib irəli şığıdılar. Vuruşdular, son damla qanlarına qədər vuruşdular. Aralarında şəhidlik zirvəsinə ucalanlar da oldu. Bəli, onlar öz şəhidlikləri ilə Azərbaycan döyüşçüsünün gücünü bütün dünyaya göstərdilər. Qısa döyüşlərdə düşməni geri çəkilməyə məcbur etdilər. Mühüm əhəmiyyətli yüksəkliklər ələ keçirildi. Son qarış torpağımıza kimi müharibəyə hazır olduğumuzu bir daha sübuta yetirdik.

Bu döyüşlərdə şəhid olan qəhrəman oğullarımızdan biri də Cəbrayıl rayonunun Xudaverdi kəndindən olan kiçik çavuş Ruhin Qəhrəmanovdur. Ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif olunan Ruhin aprel döyüşlərində Vətən uğrunda canından keçən ilk döyüşçülərimizdən idi...

Ruhinin döyüşdüyü "N" hərbi hissəsinə ezam olunmuşam. Düşmən təxribatının qarşısını qəhrəmanlıqla alan döyüşçülərimizin xidmət yerinə yollanıram. Düşməndən geri alınan mövqelərimizin keşiyində duran döyüşçülərlə salamlaşıram. Ruhinlə çiyin-çiyinə vuruşan yoldaşları onun qəhrəmanlığından ağızdolusu danışırlar. Düşmən təxribatının qarşısının alınması məqsədilə, döyüş meydanına şücaətlə atılan Ruhinin, son damla qanına qədər vuruşduğunu deyirlər. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rövşən Rəhimov şəhid olan silahdaşı haqqında danışır:

"Ruhin, idmanı çox sevirdi, boş vaxtlarında idmanla məşğul olurdu. O, çevik, cəld döyüşçü idi. Vətənpərvərliyi hər zaman bizlərə nümunə idi. Döyüş meydanına da birinci atılmışdı. Üç saatdan çox döyüşən Ruhin qəflətən düşmən gülləsinə tuş gəldi. Lakin bir güllədən yıxılmadı, düşmənin üzərinə şığıdı və özünü güllələrə sipər elədi. Onun bu qəhrəmanlığı bizləri daha da ruhlandırdı, gücümüzə güc qatdı.

Ona atəş açan dığaların cavabını verdik. Sağ qalanları isə silahlarını atıb qaçırdılar. Ruhin ölümün ən uca zirvəsi olan şəhidlik məqamına yüksəldi. O hər zaman bizimlədir, qəlbimizdə yaşayır və yaşayacaqdır. Mən öz övladlarıma hər zaman Ruhindən danışacam, onun kimi mərd, qorxmaz, vətənpərvər olmağı öyrədəcəm."

Şəhidin digər döyüş yoldaşı kiçik çavuş Ramil Qələndərov da deyir ki, Ruhinin şücaəti və mərdliyi ilə fəxr edirik. "Döyüş yoldaşımızın qəhrəmanlığı ilə hər zaman öyünürük. Bu döyüşlərdə Ruhin kimi başqa silahdaşlarımız da şəhid oldular. Onlar öz şəhidlikləri ilə bizə örnəkdilər. Bizlər hər zaman Ali Baş Komandan İlham Əliyevin döyüş əmrinə hazırıq. Torpaqlarımızı düşməndən azad edərək, şəhid qardaşlarımızın ruhunu şad edəcəyik."

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

Redaksiyamızın poçtundan

# “Xarı bülbül bizim olacaq!”

*Bu yaxınlarda "Azərbaycan Ordusu" qəzetində bir yazı oxudum. 5-ci sinif şagirdi Nazənin Məmmədəliyeva Azərbaycan əsgərinə müraciətlə yazmışdı: "Mənə Şuşadan Xarı bülbül gətir". Kövrək istəkdir. Bu istəyə necə sevinməyəsən? Axı bu istək hamımızın istəyidir! O yaşda uşağın istəyi adamın ürəyini dağa döndərir.*

İnsan müəyyən arzu, müəyyən istəklə günləri ay eləyir, ayları il. Ömürdən ötüb-keçən ayları, illəri mənalı yaşamağa çalışır. Hansı ömürə mənalı yaşanan ömür deyirik? Təbii ki, xalq üçün, millət üçün, dövlətçilik üçün yaşanılan ömürə.

Hər yaşa münasib istək olur.

Hər birimiz orta təhsili başa vurmağa, ürəyimizə yatan bir sənəti mükəmməl öyrənməyə, cəmiyyətdə müəyyən mövqe tutmağa çalışırıq. Bunun üçün aldığımız təhsilə, dünyaduyumumuza güvənirik. Çətinliklərimiz də olur. Onları iradəmizlə, zəhmətə bağlılığımızla aradan qaldırırıq.



Elə istək var ki, onlar xalqın, millətin adına bağlıdır. Əsl istək məhz budur! Min illər belə olub, indi də belədir, belə də olacaq...

1988-ci ildə xalq müstəqillik, azadlıq istəyiylə ayağa qalxdı. 1920-ci ilin 28 may gününü yaşatmaq üçün indi Azadlıq meydanı adlandırılan meydana axışdı. Milyonları birləşdirən tələblə ruhumuzun harayına toplaşdı. Bu tələb azadlıq tələbi idi, müstəqillik tələbi idi. İndi həmin günlərin kadrlarını həyəcanla izləyirik, qürurlanırıq.

Kadrların birində bir yeniyetmənin "Azadlığı istəmirəm qram-qram, Qolumdakı zəncirləri gərək qıram, gərək qıram!" deyə yumruqlarını düyünləməsi, o illərdə gənclərin amalının, istəyinin təsdiqiydi. Bu günün gəncləri onların davamçılarıdır. Biz gənclər torpaqlarımızın işğaldan azad edilməsi naminə o yeniyetmənin yumruqları kimi birləşmişik.

Ermənilərin Azərbaycana qarşı ərazi iddiası genişləndə elan edilməyən müharibə başladı. Onda oğullar bir istəklə döyüşlərə atıldılar: sərhədyanı kəndlərdə əhalinin təhlükəsizliyini təmin etməklə erməni həmlələrinin, hücumlarının qarşısını almaq. Döyüşdülər. Neçə Vətən oğlu şəhid oldu...

Yusif Mirzəyev bu amalla döyüşdü, şəhid oldu...

Mübariz İbrahimov bu amalla döyüşdü, şəhid oldu...

Samid İmanov bu amalla döyüşdü, şəhid oldu...

İndi ordumuz daha mətindir, döyüş hazırlığı daha yüksəkdir, ən müasir silahlarla təmin edilib...

İndi hamını bir istək birləşdirir: torpaqlarımız işğaldan azad edilməlidir!

Azərbaycan əsgəri 5-ci sinif şagirdinin istəyini gerçəkləşdirəcək. Həm də yaxın vaxtlarda!..

Xarı bülbül Xarı bülbülü sevənlərin olacaq!

**Şəbnəm BEHBUDZADƏ**



*Gizir Elnar Bağırov dünyaya göz açıb həyatı dərk edən gündən atasını hərbi formada görüb. Elə o vaxtdan da bu peşəyə marağı, həvəsi yaranıb. Atası Qalib Bağırov 35 ildən çox ordu sıralarında xidmət edib. Keçmiş Sovet ordusunda xidmətə başlayıb və doğma ordumuzun sıralarında xidmətini başa çatdırıb. Müstəqil dövlətimizin ordusu yarananda o da bir hərbçi kimi bilik və bacarığını əsirgəməyib. İki oğlu Elnur və Elnarı da vətənpərvər ruhda böyüdüb. Övladları da daim atalarının məsləhət və tövsiyələrinə qulaq asıb, dediklərinə əməl ediblər.*

Nümunəvi xidmət

# Etimada layiq gizir...

Bu gün Qalib Bağırovun hər iki oğlu gizir rütbəsində Hərbi Hava Qüvvələrinin hərbi hissələrində xidmət edir. Hər ikisi atalarının yolunu şərəflə davam etdirməyin sevincini yaşayırlar. Gizir Elnar Bağırovun idmana da marağı böyükdür. O, kiçik yaşlarından karate ilə məşğul olub. Bu günə qədər çoxsaylı idman yarışlarında iştirak edərək ürəkaçan nəticələr qazanıb. Elnar yenə də məşqlərini davam etdirir. Düşünür ki, hələ qazanacağı böyük uğurlar qarşıdadır.

Gizir E.Bağırov əsgər kimi cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində xidmət edib. Torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanıb. Kiçik yaşlarından hərbçi peşəsinə olan maraq 2011-ci ilin aprelində onu gizir hazırlığı kursuna gətirib. Həmin ilin oktyabrında kursu uğurla başa vuraraq "N" hərbi hissəsində xidmətə başlayıb.

Hazırda xidmətini cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində davam etdirir, üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlməyə səy göstərir. Bu günə qədər əxz etdiyi hərbi bilik və döyüş vərdişlərini böyük həvəslə ordu sıralarında ilk addımlarını atan gənc əsgərlərə öyrədir. Xidməti ilə başqalarına nümunə olmağa, həm komandanlığın, həm də tabeliyində olan şəxsi heyətin etimadını doğrultmağa çalışır. Çalışqanlığı sayəsində həmişə istəklərinə nail olur. Qardaşı Elnurla da tez-tez əlaqə saxlayıb xidməti ilə maraqlanır. Doğma ordumuzun sıralarında xidmət etməkdən, atasının yolunu şərəflə davam etdirməkdən qürür duyur.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Həmkarımız "Mikayıl Müşfiq mükafatı"na layiq görülüb





*Azərbaycanda "ruha dad verən" poeziyanı həmişə sevib, dəyərləndiriblər. Paytaxtımızda ənənəvi Şairlər Gününün keçirilməsi də şeirə, sənətə bu bağlılıqdan, sevgidən qaynaqlanır.*

*Builki VI Şairlər Günü iyunun 5-də baş tutdu və bənzərsiz şairimiz Vaqif Səmədoğlunun xatirəsinə həsr edilmişdi. Poeziya bayramında Azərbaycan yazarları ilə yanaşı, dünyanın müxtəlif ölkələrindən - Türkiyə, ABŞ, Rusiya, Özbəkistan, İran, Ukrayna, Qırğızıstan, İsrail və Gürcüstandan gəlmiş söz adamları da iştirak edirdilər.*

Tədbir iştirakçıları öncə Fəxri xiyabana gələrək Vaqif Səmədoğlunun məzarını ziyarət etdilər. Sonra Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anarla görüş keçirildi.

Doğum günü Şairlər Gününə təsadüf edən Mikayıl Müşfiq də, təbii ki, yaddan çıxmamışdı və həmin gün hamı Xəzərin sahilinə gələrək repressiya qurbanı olmuş nakam şairimizin rəmzi məzarı hesab edilən dəniz sularına təzə-tər qərənfillər səpdilər.

Tədbir Beynəlxalq Muğam Mərkəzində poeziya gecəsilə davam etdirildi. Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar, Türkiyənin Elm və Ədəbi Əsər Sahibləri Birliyinin baş direktoru Mehmet Nuri Barmaqsız, xalq şairi Nəriman Həsənzadə və başqaları çıxış etdilər, Şairlər Gününün ənənəvi keçirilməsinin önəmindən danışdılar, Azərbaycan ədəbiyyatının və digər ölkələrlə mədəni əlaqələrin inkişafına poeziya bayramının verəcəyi töhfələr barəsində düşüncələrini bölüşdülər.

Poeziya bayramının maraqlı məqamlarından biri Şairlər Günü münasibətilə təşkilatçılar tərəfindən söz adamlarına "Mikayıl Müşfiq mükafatı"nın təqdim edilməsi oldu. Xalq şairi Nəriman Həsənzadə, Rəşid Hüseynov, Mehmet Nuri Barmaqsız (Türkiyə), Robert Yevdayev (ABŞ), Ariel Hut (İsrail) nakam şairimizin adını daşıyan ödülə layiq görüldülər.

Xoşdur ki, "Mikayıl Müşfiq mükafatı"nın builki laureatı istedadlı şairimiz Rəşid Faxralı həm də həmkarımızdır, "Azərbaycan Ordusu" qəzetində vətənpərvərlik mövzusunda maraqlı yazıları ilə çıxış edir. Rəşid Faxralı neçə-neçə şeirlər kitabının müəllifidir. Onun təbindən süzülən poeziya nümunələri bir sıra xarici ölkələrin ədəbi dərgilərində çap edilib.

2014-cü ildə gürcü poeziyasından tərcümələrinə görə Rəşid Faxralı Tbilisi meriyasının təsis etdiyi ədəbi mükafata layiq görülmüşdü. 2015-ci ildə isə şair Azərbaycan Mədəniyyət Nazirliyi xəttilə keçirilmiş "Qızıl kəlam" kitab müsabiqəsində, eyni zamanda "Əsgər məktubları" müsabiqəsində üçüncü yeri tutmuşdu.

Şair həmkarımız Rəşid Hüseynovu səmimi qəlbdən təbrik edir, ona yaradıcılıq uğurları arzulayırıq.

**"Azərbaycan Ordusu"**

*Ovqat*

# Müharibə mövzusunda əsərlərin yaranması üçün hələ çox işlər görülməlidir

***Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, müharibə mövzusu çağdaş nəşrimizdə ləng və seyrək görünür. Bu mövzuya həsr olunmuş romanları, povestləri və hekayələri barmaqla saymaq olar. Nəşr olunan əsərlər isə mövzunu geniş, dolğun əhatə etmir.***

Müharibə mövzusunda yazan müəlliflər düşünürlər ki, mətnin içində döyüş səhnələrinin olması mütləqdir. Gərək oxucunun gözü qarşısında tanklar hücuma keçsin, şəhərlər dağılsın, evlər uçsun, adamlar qırılsın. Müharibənin insanlara, cəmiyyətə vurduğu yaraları oxuculara çatdırmaq üçün bu epizodlardan istifadə etməmək də mümkündür. Vacib deyil ki, müharibə mövzusuna müraciət edəndə yalnız səngər, döyüş səhnələri olsun, toplar gurlasın, qan tökülsün. Arxa cəbhədən də yazıb müharibənin dəhşətlərini oxucuya göstərmək olar. Bunun üçün isə, təbiidir ki, yazıçıdan ustalıq və peşəkarlıq tələb olunur. Dahi qırğız yazıçısı, dünya şöhrətli Çingiz Aytmatovun "Ana Tarla" və "Gəmilər" povestində müharibə illərində arxa cəbhə təsvir olunur. Əsərləri oxuduqca müəllifin peşəkarlığına heyran qalmaya bilmirsən. Əsərlərdə arxa cəbhədə gecə-gündüz bilmədən çalışan insanların fədakarlığını, cəsarətini görürük. Əsərdən top-tüfəng səsləri eşidilmir. Amma oxucu müharibənin dəhşətini hiss edir, ağrılarını yaşayıb müharibəni başlayanlara nifrət edir. "Ana Tarla" povestindəTolqonay ana üç övladını və həyat yoldaşını cəbhəyə yola salır, özü isə gecəgündüz bilmədən kolxozda işləyir. Əzab dolu illər ötüb keçir. Təəssüf ki, ananın nə həyat yoldaşı, nə də övladları müharibədən geri dönmür. Bir-birinin ardınca onların qara kağızları gəlir.

Böyük rus yazıçısı L.Tolstoyun "Sevastopol hekayələri" əsəri də sənətkarlıqla yazılıb. Döyüşlərin təsviri, müharibənin dəhşətləri bu hekayələrdə çox real, necə deyərlər, yerli-yataqlı təsvir olunub. Ona görə də bu əsər maraqla oxunur, müəllifinə başucalığı gətirir. Hekayələri oxuduqca hiss edirsən ki, yazıçının müşahidələri dəqiq və yerli-yerindədir. Əsər boyu heç bir artıq ifadəyə rast gəlmirik. Dahi yazıçı döyüşün hər dəqiqəsini, hər anını ustalıqla təsvir edir. Gəlin, döyüş anlarını əks etdirən epizodlardan birini birlikdə oxuyaq: "...Atılan topların işığı uzaq, qaranlıq üfüqlərdə ildırım kimi çaxır, bastionda olan keşikçi "to-op" deyə çığırır, mərmi vızıltı ilə rotanın üstündən keçərək yerə dəyir, daşı, torpağı havaya sovurur."

Əsərdə belə təsvirlər çoxdur. Oxuduqca bu səhnələrdən zövq alırsan. Elə Azərbaycan yazıçılarının Böyük Vətən müharibəsindən də ədəbiyyatımızda kifayət qədər nümunələr var. Sadəcə olaraq, öyrənməyə gərək həvəs, maraq göstərəsən.

Müharibə mövzusunda yazılmış əsərlərin yaradıcı insanlar, ziyalılar tərəfindən rəğbətlə qarşılanması müsbət hadisədir. Bütün bunlar isə bu mövzuda özlərini sınayan yazıçılara stimul verir, yaradıcılığa ruhlandırır.

Ümid edirik ki, gələcəkdə Qarabağ müharibəsi mövzusunda reallığı, həqiqəti əks etdirən, oxucuların zövqünü oxşayan, onlara vətənpərvərlik hissləri aşılayan yeni-yeni əsərlər yazılacaq.

Müharibə ehtimalı həmişə var. Təkcə Qarabağda deyil, hər gün dünyamızın ayrı-ayrı yerlərində də atəş səsləri eşidilir. Yeni müharibə ocaqları yaranır. Evlər dağıdılır, insanlar hədəfə alınır, qan tökülür. Şəhərlər, qəsəbələr, kəndlər döyüş meydanına çevrilir. Adamlar doğma ocaqlarından didərgin düşür, silahın, ölümün əlindən hara gəldi qaçırlar.

Ədəbiyyat isə bu faciələri yazıb sanki ürəyi daşdan olan insanlara dərs verməyə çalışır. İnsanları sülhə, barışığa çağırır. Amma nə qədər yazılsa da, danışılsa da, ədəbiyyat müharibənin qarşısını ala bilmir. İnsanın nəfsi və tamahı yazıdan, ədəbiyyatdan yüksəklikdə dayanır. Bu yerdə görkəmli filosof Mericin sözləri yada düşür: "Mənfəət danışmağa başlayanda vicdan susar". Yazıçıların vəzifələrindən biri də, bəlkə də elə ən başlıcası dəyərli əsərləri ilə susan və yatan vicdanları oyatmaqdır.

Fikrimcə, silah kimi qələm də hər an insanların mənəviyyatına "atəş" açmalıdır. Bəzən isə hətta müharibənin arxasınca sürünməməli, onun qarşısını almalıdır. İnsanı, insanlığı, dünyanı müharibələrdən xilas etməlidir. Çünki ərənlərimiz qələmin qılıncdan iti olduğunu deyiblər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Məhəmməd Əlinin dəfn olunacağı gün məlum olub



Mayın 4-də vəfat edən məşhur boksçu Məhəmməd Əli iyunun 10-u ABŞ-ın Luisvil şəhərində torpağa tapşırılacaq.

Bu barədə Məhəmməd Əlinin ailə üzvləri məlumat verib. Mərasimdə ABŞ-ın sabiq prezidenti Bill Klinton da iştirak edəcək. Vida mərasiminin internet vasitəsilə canlı yayımlanacağı bildirilir.

Dünyanın ən məşhur idmançılarından biri olan Məhəmməd Əli ölümündən iki gün əvvəl tənəffüs sistemində yaranan problemlə bağlı yerləşdirildiyi Arizona ştatının Feniks şəhər xəstəxanasında dünyasını dəyişib.

Əfsanəvi boksçunun ölümü dünyanın hər yerində kədərlə qarşılanıb. ABŞ Prezidenti Barak Obama da idmançı ilə bağlı fikirlərini bölüşüb: "Hamı kimi mən və Mişel də onun ölümündən kədərlənirik. Amma biz eyni zamanda bir anlıq olsa belə, onu tanıdığımıza görə Tanrıya minnətdarıq".

## Türkiyənin Osmaniyə şəhərində məktəbliləri daşıyan avtobus su kanalına düşüb



Türkiyənin Osmaniyə şəhərində məktəbliləri daşıyan avtobus su kanalına düşüb.

Hadisə nəticəsində 12 nəfər ölüb, 20-dən çox insan yaralanıb. Yaralılar xəstəxanaya yerləşdiriliblər.

## Qazaxıstanın Aktobe şəhərində atışma olub



Qazaxıstanın Aktobe şəhərində baş vermiş atışma nəticəsində ölən və yaralananlar var.

Bunu Qazaxıstan Daxili İşlər Nazirliyinin rəsmisi Almas Sadubayev bildirib.

Onun sözlərinə görə, naməlum şəxslər Aktobe şəhərindəki "Pallada" silah mağazasına, saat 15.45 radələrində digər silah mağazasına və Milli Qvardiyanın hərbi hissəsinə hücum ediblər. Nəticədə "Pallada" mağazasının satıcısı öldürülüb, bir nəfər yaralanıb.

Milli Qvardiyanın hərbi hissəsinə hücum zamanı bir zabit və müqavilə əsasında xidmət edən hərbçi ölüb, 9 hərbçi yaralanıb. Görülən tədbirlər nəticəsində silahlılardan 3-ü öldürülüb, biri saxlanılıb, bir neçə silahlı isə mühasirəyə alınıb, bəzi silahlılar isə qaçmağa nail olublar.

Qaçan silahlıların saxlanılması istiqamətində əməliyyat keçirilir.

## Pakistanın müdafiə xərcləri 11 faiz artırılacaq



Pakistanın Müdafiə naziri İsxak Dar bildirib ki, gələn ildən ölkənin müdafiə büdcəsi 11 faiz artırılacaq. Onun sözlərinə görə, silahlı qüvvələr "Taliban" radikal qruplaşmasının aktiv fəaliyyət göstərdiyi regionlarda terrorçuların məhv edilməsi istiqamətində çox iş görür və bu istiqamətdə tədbirlər davam etdirilir.

İ.Dar deyib: "Terrorçuların fəaliyyəti səbəbindən ölkəyə sərmayə qoyuluşunun həcmi nəzərəçarpacaq dərəcədə azalıb. Bu da ölkə iqtisadiyyatına kəskin zərbə vurur."

Pakistanda kasıbçılığın səviyyəsi yüksəkdir. Buna baxmayaraq, son bir neçə il ərzində müdafiə xərcləri davamlı olaraq artırılır.

**AZƏRTAC-ın materialları əsasında**



*Döyüşən sətirlər*

# İrəli!

Ey qəhrəman, mübariz Azərbaycan əsgəri,
Ey qüdrətim, qürurum, ey yenilməz siparim!
Ey yurdun ər övladı, xalqın vətənpərvəri,
Yürüşünlə irəli, atəşinlə irəli!

Zirvələrə sancılan bayrağım səninlədir,
Atəşgahım, od saçan torpağım səninlədir.
Əmr versə hücuma Ali Baş Komandanım!
Titrəsin yer kürəsi bizim hayqırtımızdan.

Bütün millət səninlə, bütün xalq səninlədir,
Yolundakı haqq ilə, qəlbindəki dinlədir.
Qoymayaq yerdə qalsın şəhidlərin qanını,
Yazaq silahımızla qələbə dastanını.

Azad olsun düşməndən doğma Qarabağımız,
Xankəndimdə ucalsın müqəddəs Bayrağımız!
Azərbaycan günəştək qoy əbədi var olsun,
Hər qəhrəman əsgəri qazi, xilaskar olsun!

Ey qəhrəman, mübariz Azərbaycan əsgəri,
Ey qüdrətim, qürurum, ey yenilməz siparim!
Ey yurdun ər övladı, xalqın vətənpərvəri,
Yürüşünlə irəli, atəşinlə irəli!

**Cavanşir QOCAYEV**

# Oğullar əsgər gedir

Vətən oğullarıdı
Dağın-daşın pənahı.
Daha nurlu gələcək
Vətənimin sabahı,
Oğullar əsgər gedir!..

Közü var ocağın da,
Gül açar torpağın da...
Yaşının bu çağında
Oğullar əsgər gedir!..

Can verəcək hər daşa,
Dağlar düşməz təlaşa...
Son qoyular savaşa,
Oğullar əsgər gedir!..

Bağça üçün, bağ üçün,
Aran üçün, dağ üçün,
Anam Qarabağ üçün
Oğullar əsgər gedir!..

**Bilal XƏLİLOV**

# ANAMA cəbhə xəttinə yaxın evlərdə və partlayış yerlərində minatəmizləmə əməliyyatlarını davam etdirir

***Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) iyunun 5-də Füzuli, Ağdam və Tərtər rayonlarında aşkar olunan partlamamış hərbi sursatlar (PHS) haqqında hesabat təqdim edib.***

ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun Şıxarx kəndində iki ev və həyətyanı sahəyə, iki otlaq sahəsinə, ümumilikdə 4 partlayış yerinə baxış keçirilib, iki ədəd partlamamış hərbi sursat (1 ədəd 37 millimetrlik top mərmisi və 1 ədəd 122 millimetrlik mərmi) aşkar edilərək götürülüb. Cəmilli kəndində bir əkin və bir otlaq sahəsində ümumilikdə 6 yerə baxış keçirilib və iki ədəd partlamamış hərbi sursat (9M22U raketinin (Qrad) mühərrik hissəsi) aşkar edilərək götürülüb.

Ağdam rayonunun Qaradağlı kəndində iki ev və həyətyanı sahə yerinə baxış keçirilmiş, bir ədəd partlamamış hərbi sursat (9M22U raketinin (Qrad) mühərrik hissəsi) və bir ədəd 122 millimetrlik top mərmisinin qalıqları aşkar edilərək götürülüb.

Füzuli rayonunun Horadiz şəhərində iki otlaq sahəsində partlayış yerinə baxış keçirilib, nəticə etibarilə 1140 kvadratmetr ərazi yoxlanılıb.

Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində, Qarqar çayının sahilində bir ədəd TM-62M tank əleyhinə mina aşkar olunub, minanın daşınması mümkün olmadığı üçün iyunun 6-da yerində partladılması nəzərdə tutulur.




Ümumilikdə Agentlik tərəfindən aprelin 7-dən iyunun 5-dək Zərdab, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Goranboy, Tovuz, Samux, Şəmkir, Cəlilabad, Ucar rayonlarında, Mingəçevir, Sumqayıt və Bakı şəhərlərində 577 ev və həyətyanı sahə, 2 hərbi hissə, 2 kənd qəbiristanlığı, 5 kənd orta məktəbi, 1 tibb məntəqəsi, 21 ferma, əkin sahələri və 1 çaxır zavodu ərazisinə baxış keçirilib, 1498 ədəd partlamamış hərbi sursat, 11 ədəd piyada əleyhinə mina (PMN), 3 ədəd piyada əleyhinə POMZ-2 və 7 ədəd tank əleyhinə mina aşkar olunaraq zərərsizləşdirilib.

Hazırda Agentlik tərəfindən yaradılmış xüsusi təyinatlı mobil çevik qruplar minaaxtaran itlərin dəstəyi ilə təmas xəttində yerləşən kəndlərdəki evlərlə yanaşı, məktəblər və digər obyektlərin yerləşdiyi ərazilərdə əməliyyatları davam etdirir.

# İdman

## Cüdo üzrə ənənəvi beynəlxalq turnirin iştirakçıları ulu öndər Heydər Əliyevin xatirəsini yad ediblər



İki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun xatirəsinə həsr olunmuş cüdo üzrə XXXVIII beynəlxalq turnirin iştirakçıları Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Sonra idmançılar Şəhidlər xiyabanında Həzi Aslanovun abidəsini ziyarət edib və önünə gül dəstələri düzüblər.

## Azərbaycan velosipedçisi “Grand Prix of İSD” yarışını ikinci pillədə başa vurub



Ukraynada keçirilən Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı "Grand Prix of İSD" yarışı Azərbaycanın U-23 yığması və "Synergy Baku" kontinental komandasının üzvü Samir Cəbrayılov üçün uğurlu nəticə ilə yadda qalıb.

Velosipedçimiz fəxri kürsünün ikinci pilləsinə qalxıb. 153 kilometr məsafəni Qazaxıstanın "Astana City" komandasının üzvü Nurbolat Kulimbekovla eyni vaxtda keçən S.Cəbrayılov rəqibindən azacıq geri qalıb və 2-ci nəticə göstərib - 3 saat, 25 dəqiqə, 24 saniyə. Finiş xəttini 3-cü və 4-cü keçənlər də "Astana City" komandasının üzvləri olub.

## Qadın voleybolçulardan ibarət Azərbaycan yığması Avropa Liqasında növbəti oyununu keçirib



İyunun 5-də qadın voleybolçulardan ibarət Azərbaycan yığması Avropa Liqasında növbəti oyununu keçirib.

Millimiz qrupda sonuncu oyununda İspaniya ilə qarşılaşıb. Qarşılaşma 3-1 hesabı ilə Azərbaycan voleybolçularının qələbəsi ilə başa çatıb. İlk set millimizin açıq-aşkar üstünlüyü şəraitində keçib (25-16). İkinci setdə ispanlar hesabda bərabərlik yarada biliblər (23-25). Sonrakı iki setdə də voleybolçularımız rəqibindən üstün olub (25:17, 25:16).

## Azərbaycan idmançıları Bakıda “M-1 Challenge 67” turnirində qalib olublar




İyunun 4-də Azərbaycan paytaxtında ilk dəfə qarışıq döyüş növləri üzrə məşhur "M-1 Challenge 67" "Odlar Yurdunda döyüş" adı altında turnir keçirilib.

"Sərhədçi" Olimpiya İdman Mərkəzində keçirilən yarışda 15 ölkədən olan idmançıların iştirakı ilə 10 döyüş baş tutub.

Turnirdə Azərbaycanı üç idmançı təmsil edib. Bunlar dünya və Avropa çempionları Taleh Nəcəfzadə, Zaur Hacıbabayev və Etiqad Atakişiyevdir. "Baku Fight" klubundan olan təmsilçilərimiz gecənin super görüşündən qalib ayrılıb. Döyüşə inamlı başlayan Zaur Hacıbabayev birinci raundda almaniyalı rəqibi Lazar Todevi məğlub edib. Digər döyüşçümüz Taleh Nəcəfzadə Ekvatorial Qvineya idmançısı Felipe Nsueyə qarşı yarışıb. T.Nəcəfzadə görüşün üçüncü raunddunda rəqibindən güclü olub.

Gecənin və günün son döyüşündə 77 kiloqram çəki dərəcəsində "M-1" yarışında debüt edən Azərbaycan idmançısı Etiqat Atakişiyev ispaniyalı rəqibi Adrian Pereslə üz-üzə gəlib. İdmançımız rəqibini boğucu fəndlə məğlub edərək adını mükafatçılar sırasına yazdırıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 390
Nüsxə 4720